# Epoxal roman-dilogiya - ömrün acılı-şirinli illərinin bədii salnaməsi

## və yaxud, xatirə-memuar janrında bədii-audentik roman...



*Qurban BAYRAMOV,*
*tənqidçi-ədəbiyyatşünas*

***"Yaddaş mədəniyyətin əsasıdır. Memuarlar isə yaddaşın sözdə və sözlə əşyalaşmasıdır."***
**(L.Qinzburq)**

***"Həyatı sevməyin bir yolu da xatirələri yaddaşda qorumaqdır...İnsan ötüb keçmiş xoş günlərini xatırlamaqla çətin anlarda təskinlik tapır, ovuna bilir..."***
**(Əli Rza Xələfli)**

***"O adamın xatirələri olur ki, o, zəngin, mənəvi cəhətdən dolğun bir ömür, daha doğrusu, tale yaşasın..."***
**(Nizamədin Şəmsizadə)**

Professor Məmməd Əliyevi - görkəmli ədəbiyyatşünas alim, nəzəriyyəçi, ali təhsil mütəxəssisi, pedaqoq, Əməkdar müəllim, Qızıl Qələm, Nizami Gəncəvi, "Oxu tar" ...mükafatları laueratı...

Məmməd İrac oğlu Əliyeviçoxdan tanıyıram, keçən əsrin 70-ci illərindən, aspirantura təhsili illərindən... Bizi birləşdirən ədəbi prosesə oxşar, amma təkrarsız münasibətimiz, müqəddəs elm məbədi saydığımız eyni tədqiqat institutunun elmi mühiti olubdur. Onun, demək olar ki, əksər elmi məqalələrini, tədqiqatlarını, monoqrafiyalarını oxumuşam, amma bədii yaradıcılıqla məşğul olduğunu, şəxsən, özpayıma bilmirdim.

İndi onun qələmə aldığı monumental, üst-üstə 908 səhifəlik, iki hissəli poman-diologiyası masamın üstündədir. Dilogiyanın birinci kitabı "Həsrətin o üzü"(Bakı, "Elm və təhsil", 2021, 520 səh.), ikinci kitabı isə "Karvan köçər, ötər gedər sədası" (Bakı, "Elm və təhsil", 2021, 388 səh.) adlanır. Hələ son 30 ildə bu həcmdə maraqlı roman oxumamışdım, daha da, dəqiqləşdirsək, roman özünü mənə oxutmamışdı... İlk səhifəsindən məni aldı-apardı, elə bil öz ömrümün ləpəli okeanına düşdüm... Olduqca maraqlı və oxunaqlı romandır...

"Həsrətin o üzü" romanının teksturasında oxuyuruq: "Əsrdə XX əsrin 50-60-cı illərində Azərbaycanda gedən ictimai-siyasi proseslər kontekstində bir ailənin düşdüyü böhranlı həyat tərzi bütün reallıqları ilə əks olunmuşdur. Məkrli erməni xəyanəti nəticəsində ailə başçısını itirən Ana məcburiyyət üzündən uçqar dağ kəndində yaşamalı olur, iki azyaşlı övladını böyütmək üçün hər cür əzab-əziyyətə dözərək onları layiqli vətəndaş görmək istəsə də, hər addımda müəyyən problemlərlə qarşılaşır, bütün qüvvəsini səfərbər edir... Ata həsrətlə dünyasını dəyişir, həsrətin o üzündə qoyub getdiyi iki övladı və onların anası durur. Həsrətin o üzü amansız və sərtdir... Əslində isə bu modern dastandır."

Bu teksturada romana, onun mövzusuna, əhatə etdiyi mühitə ümumu bir ayna tutulub. Maraqlı bir cəhət də budur ki, müəllif bu roman-epopeyanı "modern dastan" adlandıraraq, romanın janrını "dastan" fakturası təkin müəyyənləşdirir ki, romanın siqləti buna haqq verir...

"Həsrətin o üzü" iki hissədə - birinci dörd, ikinci isə üç bölmədən ibarət yeddi fəsildə yekunlaşır. "Xəyanətin üzü qara", "Dağlar qoynunda, qoynunda", "Kiçik neft şəhərində", "Bir yay gecəsi", "Hər gecənin bir gündüzü", "Ömrün şirin illəri" və "İmtahan sınaq olmadı" kimi bədii-fəlsəfi fəsillərin elə adları əsərin məzmunu haqqında təsəvvür yaradır. Bu hissədə əsərin baş qəhrəmanı Muradın kənddə - Xızının Zöhrabkənddə uşaqlıq, yeniyetməlik çağlarının, kənd həyatının maraqlı mühiti ilə tanış oluruq...

Müəllif əsərini romanın əsas qəhrəmanlarından biri olan anası Züleyxa xanıma həsr edibdir və epiqraf da belədir: "Anam Züleyxa xanımın əziz xatirəsinə həsr edirəm." Romanın birinci kitabına tanınmış tənqidçi, professor, Dövlət mükafatə laueratı Nizaməddin Şəmsizadə çox məzmunlu "Həsrətin o üzündə qalan illər" başlığında ön söz yazaraq təhlil etmiş, onu qiymətləndirərək yazmışdır: "Həsrətin o üzü" romanı bizim hamımızın - 50-ci illərdə dünyaya gələn uşaqların tale romanıdır. Ona görə də, bizə doğmadır. Ümid edirik ki, əsər müasir Azərbaycan romanları sırasında layiqli yer tutacaqdır."

Roman-dilogiyanın "Karvan köçər, ötər gedər sədası" ikinci hissəsi isə"İşsizliyə təyinat almışdı", "Müqəddəs arzum - aspiranturam", "Gecəqondu evim oldu", "Sonu dava-dalaşlı dissertasiya", "Vətəndən uzaqlarda", "Qazax çölü... Həştərxan", "Moskva -Lenin kitabxanası", "Ayrılığın sonu varmış" və s. bu qəbildən otuz iki başlıqda təqdim edilir. Burada ali məktəbə qəbul olduqdan sonra min bir zəhmətə qatlaşıb təhsil alan, şəkli "Şərəf lövhəsi"indən düşməyən gəncə -- Murada həmin ali məktəbdə qalıb işləmək üçün təyinat verilsə də, bəzi bədxahların ucbatından o işsiz qalır, aylarla kimsəsizlər kimi küçələrdə dolaşır, heç kim onunla maraqlanmır, əksinə tələbə ikən qaldığı yataqxanadan da çıxarırlar... Bir təsadüf nəticəsində qayğıkeş müəllimi Məmməd Səlim Tahirzadə (M.Ə.Sabirin oğlu) ilə qarşılaşan və ondan məsləhət alan gənc Murad daxili həyəcanlarına, iztirablarına üstün gələrək müəlliminin təhriki ilə yeni təyin olunmuş təhsil naziri Danil Quliyevin qəbuluna gedir, onun alicənablığı, humanizmi, gəncliyə qayğıkeşliyi sayəsində heç kimin gözləmədiyi halda təhsil nazirliyində məsul vəzifəyə təyin olunur...Buradan da, müəllifin prototipi olanMuradın həyatında yeni bir mərhələ başlayır...

Bizim yaxşı tanıdığımıza əmin olduğumuz professor Məmməd Əliyev oxucuların qarşısına bu dəfə maraqlı və gözlənilməz eksperimentlə çıxır. (Demək ki, hələ də Məmməd Əliyevi yaxşı tanımırıq.) O, yeni romançı kimi ortaya çıxır və iki cildli roman-dilogiyasında 50-ci illərdən sonrakı Sovet dövrü Azərbaycanının ictimai, siyasi, sosial, mədəni-ədəbi həyatı professor, nəzəriyyəçi Məmməd Əliyevin qələmindən keçərək yeni interpretasiyada, bizə yeni forma və məzmunda təqdim edilibdir. Bu memuar roman dilogiya bizim ədəbiyyatımızda bir qələm sahibinin bir ilki olmaqla yanaşı, həm də müstəqillik dövrünün müstəqil məzmunlu nəsr hadisəsidir. "Hər yeni şey unudulmuş köhnədir" deyimini bu epik romana tam rahatlıqla aid etmək olar, amma professor da, öz istedadının gücü sayəsində bu "yeni-köhnə" ilə sizi qətiyyən yormayacaq, əksinə, qarşınızda unutduğunuz, geridə qalan bir zamanı canlandıraraq təsəvvürünüzün yeni qatlarını təzələyə-təzələyə açacaq...

Məmməd Xızının - Azərbaycanın şimal zonasına yaxından bələd olan, deyərdim, hər kəndini, obasını, dağını-daşını, bulağını, yamacını doğmalıqla tanıyan və hər şeydən əvvəl camaatına yaxşı bələd olan, onları adbaad tanıyan, sevən bir ziyalıdır... Bu onun "Həsrətin o üzü..." romanının hər səhifəsində, hər bölməsində açıq-aşkar görsənir. Məmməd bu romanında Azərbaycanın epoxal bir dövrünə sanki güzgü tutur, bütün səmimi nostaljisi ilə bu gündəmin keçən əsrin müharibədən sonrakı dövründən bu günümüzə bir ədəbi-bədii körpü salır, keçmişimizin xatirələr cığırında bizi səyahətə çıxarır, içimizdə öləzimiş xatirələr közünü yenidən közərdir... Müəllifin müşahidələrinin zənginliyi, yaddaşın fenomenal parametri, həssas fikir və duyğuları ilə, deyərdim ki, heyrət doğurur... Bu roman yazıçı təxəyyülünün deyil, real həyat hadisələrinin sənədli-sübutlu, ancaq məqbul ədəbi dil bə bədii üslub mədəniyyəti ilə qələmə alınmış epoxal romandır...

Maraqlı budur ki, ilk roman təcrübəsi olsa da, Məmməd Əliyev müasir Azərbaycan nəsrində özünəməxsus yolu, üslubu ilə seçilən bir nasir kimi diqqəti cəlb edir. Adam inana bilmir ki, bu roman onun ilk qələm təcrübəsidir. Romanda təhkiyyənin səlistliyi və şirinliyi, dilinin səliqə-sahmanı, kənd koloriti, təsvir etdiyi obrazların təbii və inandırıcılığı bizdə bu qənaəti doğursa da, fakt - ələhəzrət fakt ortadadır, iki hissəli, monumental epopeya siqlətli "Həsrətin o üzü" (birinci hissə), bu romanın davamı olan "Karvan keçər, ötər gedər sədası"(ikinci hissə) romanı onun ilk romanıdır... Bu romanda dolğun xarakterlər qalareyası ilə qarşılaşırıq, hər bir xarakterin özünəməxsus, həyatı elə canlı, həyati, gerçək təsvir olunur ki, sanki, müəllif yaşadığı mühitin - kəndin adamlarının sözünən potretini cızır, sözünən onların hər birinin bədii xarakteristikasını verir, sözünən onların hər birinin psixoloji-ruhi tərcümeyi-halını yaradır...

Kənd həyatı və məişətini, orada yaşayan insanların psixologiyasını yaxşı duyan, bilən və qələmə alan bir nasir olaraq Məmməd Əliyev özündən əvvəlki ənənəni - Süleyman Rəhimov, Əli Vəliyev, İlyas Əfəndiyev, Bayram Bayramov, İsa Hüseynov, Sabir Əhmədli, Mövlud Süleymanlı kimi nasirlərin ənənəsi üzərində tamamilə orjinal təhkiyyə, orjinal üslub və orjinal bədii format sərgiləyə bilir...

Məmməd Əliyev ədəbiyyatşünasdır, folkloristdir, nəzəriyyəçi alimdir. Nəsrin janrlarının bütün xüsusiyyətlərini yüksək universallıqla bilir, neçə-neçə elmi əsərlərin müəllifidir, elmlər doktoru, professordur. Bütün bu elmi bilik bazası, əlbəttə, onun bədii yaradıcılığına yansıyır, lakin, bədiiliyə xələl gətirmir, əksinə gücləndirir. O, romanında üç əsas istiqaməti daha qabarıq göstərməyə nail olur. **Birincisi:** təsvir etdiyi obrazlar mümkün qədər real və görümlü olsun, obrazlar həyatdan gəlsin və ya həyatda olduğu kimi olsun, çünki, bu əsər, memuar janrındadır, təsvir olunan insanların adları, yaşam tərzi realdır,əsərə təxəyyüldən gəlmir... **İkincisi:** kəndlini kəndlidüşüncəsiylə danışdırsın. Hər bir təsvir inandırıcı olsun, hiss edəsən ki, bura kənddir, burda yaşayanların hər biri fərdi düşüncəyə, əhval-ruhiyyəyə malikdir. Onlar süni, qurama dillə danışmırlar. **Üçüncüsü:** kəndin dövrə, zamana, gerçəyə uyğun ictimai həyatını, sosial, məişət qayğılarını bütün nüansları ilə nəzərə çarpdırsın, təsvir etsin... Çünki, müəllifin özü də, burada obrazdır, bu adamlarla bir yerdə, bir kənddə, bir mühitdə yaşayır və onun özünün də yaşam tərzi təsvir etdiyi mühitdən ayrılmazdır...

Öncə qeyd etdik ki, müəllifin təsvir etdiyi lövhələrin məkanı, qaynağı Xızı dağlarının qoynunda yerləşən kəndlərdir. Bu kəndlərin konkret adları, məkanları, ünvanları var, amma mərkəzdə Zöhrabkənd dayanır... Təsvirlərin hədəfləri, detalların təbiiliyi və konkretliyi, duyumlu müşahidələr, həyati hadisələrin xronikal görümlü etüdləri çoxunun hazırda xarabalıqları qalmış, keçən əsrin 50-80-ci iilərinin bu dağ kəndlərini yenidən canlandırır... Romanda təsvir edilən obrazlar sadə və adi, zəhmətkeş, halal, namuslu, bir-birinin qayğısına qalan, dinə-imana, qanuna inanan, tapınan, bu xarakterləri ilə də, müstəsna qəhrəman təsiri bağışlayan insanlardır.

Məmməd Əliyevin bu epoxal romanında təsvir olunan hadisələr, göstərilən həyat lövhələri öz həyati dramatikliyi ilə diqqəti çəkir. Bu dramatikliyi təkcə obrazların qarşılıqlı münasibətlərində və konflikt doğuran situasiyalarda deyil, həmçinin, hadisələrin özünün həyati, təbii axarının mahiyyətində axtarmaq lazımdır.

(*Davamı (5-ci səhifədə)*

*(Əvvəli 3-cü səhifədə)*

Məmməd Əliyev birdən-birə, iki hissəli roman yazması, əlbəttə, ədəbi mühitdə, bəlkə də, təəccüblə qarşılanar. Amma qazandığı və yaddaşında həkk etdiyi həyat təcrübəsi, ədəbi-elmi bilik potensialı, özünün keçrdyi ömürlüyün zəngin, kolliziyalı məzmunu, masştabı onu sövq etdirdi ki, bu topladığı təcrübəni, həyat həqiqətlərini bədii həqiqətlər işığına çıxarsın, tutumlu janrda tam siqləti ilə oxucuya təqdim etsin... Və bu iki hisəli, monumental həcmili romanı ilə özünü təzə romançı tam təsdiqləyə bildi... Roman yazmaq və bu romanla özünü ədəbiyyatda təsdiq etmək, ədəbi ictimaiyyətin diqqətini bu romana cəlb etmək heç də, asan deyil. Lakin, səriştəli yazı manerası və üslubunda bütöv bir dövrü, məmləkətin taleyi və ölüm-dirim mübarizəsi ilə bağlı bir mövzuda əhatə etməyin özü, əlbəttə ki, təqdir ediləsi ədəbi hadisədir... Bu romanların ən ümdə mənası ordadır ki, ötüb keçmiş saydığımız, amma yaşadığımız bir dövr haqqında dolğun və canlı təsəvvür əldə edirsən...Məmmədin bu romanlarının çox səlis, aydın, koloritli dili var, yazı üçlubu, manerası özünəməxsusluğu ilə seçilir. Onun bədii təhkiyyəsində aydın nəzərə çarpan bir xətt - oxucunu inandırmaq, onu mühakimələrlə yormayıb əsl həqiqəti izah etmək, qaldırdığı məsələnin mahiyyətinə, kökünə varmaq istəyi aparıcıdır. Romanda, lap epizodik olsa da, yadda qalan obrazlar yaratmaq, onların daxili aləminə nüfuz etmək, koloritli lövhələr canlandırmaq, təsvir etdiyi hadisələri real və inandırıcı şəkildə təqdim etmək bir yazıçı kimi onun əsas prinsipinə çevrilmişdir.

O, Xızının Zöhrabkəndində yaşamışdı... Cəmi on dörd il, yedillik məktəbi qurtarna qədər... Amma onun romanında kənd həyatı, kənd koloriti çox təbii, lap elə olduğu kimi, sanki naturadan bədii əsərə gəlirmiş kimi təsvir olunurdu. Çünki, onun içindəruhunda o kənd havası, səmimi kəndçi psixologiyası həmişə yaşamış, onun xarakterinin saflıq və insanlıq cövhərinə çevrilmişdir...

Qəribəsi, budur ki, bu romanı oxuduqca mənim öz həyatım fərqli rakurslarda olsa da, gözüm önündə yenidən canlandı... Mən Qarabağın, Ağam bölgəsinin, Xaçınçay yaxasında, Beşik dağın, Böz dağın, Yeddixırmanın, Qaraman dağının, Şiş Güneyin - kiçik Qafqazın son dağ silsiləsinin əhatəsində yerləşən, Kolanı ellərinin ən böyük kəndlərindən biri olan, Məmmədin təsvir etdiyi Xızı kəndlərindən daha sivil Əlimədədli kəndində doğulub yaşasam da, sanki, eyni həyat tərzi keçirmişik... Bəlkə, bu ondan irəli gəlir ki, Məmmədlə yaşıdıq, eyni sosial-siyasi dövrdə, eyni sosial-siyasi tələblər və qanunlar çərçivəsində yaşamışıq... Bu hissin özü romanın realizmindən, həqiqəti təsvir etməsindən, uydurmaçılıqdan kənar təsvir-təqdim üsulundan xəbər verən faktdır... Çünki, romana xarakterik bir hadisə, yığcam bir süjet daxilində həyati, real və inandırıcı obrazlarla qarşılaşırıq. Bu obrazlar müəllif təxəyyülü ilə uydurulmayıb, birbaşa həyatın özündən ədəbiyyata gələn obrazlardır. Və müəllif roman daxilində təqdim etdiyi obrazın həm zahiri, həm də daxili portretini yaratmağa müvəffəq olur.

Yeri gəlmişkən, bir mətləbi xatırladaq ki, Azərbaycan nəsrində xatirə-povest, xatirə roman janrında bir sıra samballı yazıçıların samballı əsərləri mövcuddur. Özü də, bu yazıçılar xatirə janrında yazdıqları avtobioqrafik əsərlərini lapbadan yazmayıblar, müəyyən yaradıcılıq yolu keçəndən, peşəkar yazıçı mərhələsinə yüksələndən sonra belə bir janra cəsarət edib yanaşıblar. Bu janrı təmsil edən yazıçıların yaşı, üslubu, sənətkarlıq imkanları, mövzu dairələri müəyyən mükəmməllik kəsb edəndən sonra avtobioqrafik janra müraciət ediblər. Əslində, xatirə-avtobioqrafik (xatirə-memuar) janrın xüsusiyyətləri, mahiyyəti bunu tələb edir.

Təsbit olunmuş ədəbi-nəzəri postulata görə xatirə, yaxud memuar faktiki həyat materialı və sənədlilik əsasında yazılır. Xatirədə əsas şərt müəllifin iştirak etdiyi, şahidi olduğu hadisələri təsvir etməkdir. Dəqiqlik, tarixi həqiqətin gözlənilməsi memuar janrının mühüm xüsusiyyətləridir. Bu janrda yazılan əsərlərdə şəxsiyyətlərə, hadisələrə müəllifin subyektivizmindən, münasibət və mövqeyindən müəyyən fərqli yanaşmalar ola bilər, amma əsərdəki tarixi şəxsiyyətlərin əsas xarakterləri olduğu kimi verilməlidir və bu, mühüm şərtdir. Bundan əlavə, xatirədə həcm məhdudiyyəti də yoxdur. O baxır xatirə-memuarda təsvir olunan hadisənin zaman, dövr kəsiminə. Xatirə həcmcə hekayə, povest, roman həcmində ola bilər. Bu baxımdan, məsələn, bizim ədəbiyyatda C.Məmmədquluzadənin "Xatiratım", A.Şaiqin "Keçmiş günlər", Ö.F.Nemanzadənin "Xatirələrim", S.Rüstəmin "Unudulmaz müəllim", M.Hüseynin "Bir ay, bir gün", Anarın "Sizsiz" əsərləri xatirə-memuar janrının nümunələridir. Həmçinin, Ə.Vəliyevin "Qarabağda qalan izlər", "Turaclıya gedən yol", "Budağın xatirələri", B.Bayramovun "Üzlü, astarlı günlər", "Bizim kəndin axşamları", İlyas Əfəndiyevin "Geriyə baxma, qoca", daha sonrakı dövrdə S.Əhmədlinin "Yazılmayan yazı", V.Babanlının "Gizlinlər", S.Səxavətin "Qaçaqaç", A.Qaradərəlinin "Əllidən bir kəm", Əlabbasın "Dağların duman çağı", Əli Əmirlinin "Ağdamda nəyim qaldı", Novruz Nəcəfoğlunun "Nağıl adam" və s. əsərlər son illərin yaxşı mənada "dəb" halını almış "həyatımdan səhifələr"dir.

Bu gözəl və dəyərli ədəbi-bədii nümunələrin davamı kimi Məmməd Əliyevin "Həsrətin o üzü" və "Karvan köçər, ötər gedər sədası" roman-dilogiya epopeyası müasir Azərbaycan nəsrinn bu janrdakı dəyərli ədəbi faktlarındandır...

### *İkinci hissə*

Burada, bizim ədəbiyyatımızda təzahür edən bir xarakterik xüsusiyyəti də xatırlatmaq istərdim. Məlumdur ki, Məmməd Əliyev müasir ədəbi-elmi camiədə tanınmış ədəbiyyatşünas, nəzəriyyəçi alim, üzun illər ali məktəblərdə pedaqoq və elm-tədris təşkilatçısıdır. 43 il ali məktəbdə müəllim, baş müəllim, dosent, professor, rektor kimi olduqca səmərəli fəaliyyət göstərib, sayılan-seçilən müəllim-pedaqoq olub,"Respublikanın Əmədar müəllimi" fəxri adını qazanıbdır. Filologiya elmlər doktorudur, professordur, folklorşünas, şeirşünasdır.

Məmməd Əliyev sən demə, yeniyetmə çağlarından şeir yazırmış, sonralar hekayə və povestlər qələmə alırmış, lakin üzə çıxarmırmış, eşitdiyimə görə" bir qismi də, tələbəlik illərinin kirayəşinin köçə-köçlərində it-bata düşmüşdür...

O, bu sahədə də, ədəbi mühitdə "qoşa qanad" yaradıcılıq sahəsinin davamçılarından olmuşdur. Akademik İsa Həbibbəyli "Qoşa qanadın harmoniyası" əsərində yazır: "Məlum olduğu kimi, elm adamlarına məxsus olan akademik düşüncə dünyanı və müasir cəmiyyəti əsaslı şəkildə dərk etmək, davamlı inkişaf proseslərinin qanunauyğunluqlarını sistemli şəkildə araşdırıb ümumiləşdirmək yaxın və uzaq gələcəyə doğru gedən yolları aydın surətdə göstərmək deməkdir.

Bu mənada dünyanı və müasir cəmiyyəti dərindən qavramaq və əks etdirmək elmi idrakın ana vəzifəsidir. Ona görə də elm bəşəriyyətin çırağı, alimlər dünyanın kompasıdır. Böyük ədəbiyyat da sözün həqiqi mənasında əsl elmin həyata keçirdiyi vəzifələri obrazlı şəkildə əks etdirir. ...Deməli, dünyanı, cəmiyyəti və insanı dərk və şərh etməkdə, gələcəyə doğru yol göstərməkdə elmlə ədəbiyyat vahid strategiyaya malikdir. Bu cəhətdən elm və ədəbiyyat dünyanı və insanı dərk etməyin qoşa qanadlarıdır."

Məlumdur ki, Azərbaycan ədəbiyyatında da, paralel olaraq bədii və elmi yaradıcılıqla məşğul olmuş, "qoşa qanad" (bu ifadəni ilk dəfə Xudu Məmmədov işlədibdir) adlandırdırılan bu istiqamətin aparıcı simalarından akademiklərdən Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Mirzə İbrahimov, Məmməd Cəfər, Şəfaət Mehdyev, Teymur Bünyadov, Fərəməz Maqsudov, Ziya Bünyadov, Xudu Məmmədov, İsa Həbibbəyli, Kamal Abdulla, Teymur Kərimli, professorlardan Cəfər Xəndan, Mikayıl Rəfli, Çingiz Hüseynov, Mir Cəlal, Məmmədhüseyn Təhmasib, Qulu Xəlilov, Xəlil Rza, Qasım Qasımzadə, Elçin Əfəndiyev, Atif Zeynallı, Arif Abdullazadə, Məhərrəm Qasımlı (Orxan Paşa), Rəhim Əliyev, Paşa Qəlbinur, Vüqar Əhməd və digərlərini (unutduğum oldusa bağışlasınlar) göstərmək olar. Yenə də, akademik İsa Həbibbəylinin ləfzi ilə desək, "qoşa qanad" - elm və ədəbiyyatın, elmi idrakla bədii təxəyyülün sintezi və vəhdəti deməkdir." Və bu yolun ləyaqətli davamçısı kimi professor Məmməd Əliyevin də, "qoşa qanad" yaradıcılığı təqdirəlayiqdir.

Belə ki, professor, ədəbiyyatşünas-nəzəriyyəçi Məmməd Əliyev də, cəsarətlə yaradıcı təfəkkürün bu "qoşa qanad" xəttinə qoşularaq qələmə aldığı irihəcmli, epopeya-dilogiyası ilə bədii yaradıcılıqda özünü təsdiq elədi!

Bu "qoşa qanadın" birinci qanadına nəzər salsaq görərik ki, professor Məmməd Əliyevin ədəbiyyatşünaslığın və ədəbiyyat nəzəriyyəsinin ciddi problemlərini əhatələmiş monoqrafiyalarından"Azərbaycan xalq şerinin forma və şəkilləri", "Azərbaycan şerinin vəzn və evfoniya problemləri" sahələri üzrə tanınmış ixtisas sahibidir. Çapdan çıxmış 75 elmi əsərin, 300-dən çox məqalənin müəlifidir ki, bunlardan "Azərbaycan şeirinin vəznləri (1983), "Heca vəznli Azərbaycan şeirinin vəzn və evfoniya problemləri" (rus dilində,1984) , "Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi" (2018), "Məxtumqulu Fəraqi şeirinin poetikası" (2018), "Böyük yolun davamı (Türk xalqları ədəbiyyatına dair araşdırmalar) I kitab, (2019),"Dədə Qorqud şeiri" (2000), "Kitabi-Dədə Qorqud dastanı" (2000), "Azərbaycan şeir sənəti (Türk şeir materialları əsasında), (2000), "Azərbaycan xalq şeirinin şəkilləri" (2001), "Əruzu necə öyrətməli - (dərs vəsaiti, şərikli) - (2004), "Azərbaycan şeirinin vəzn və evfoniya prob lem ləri" (2008), "Ədəbiyyat nəzəriyyəsinin əsasları" (2009), "Ədəbiyyat nəzəriyyəsi" (2012), "Quba-Şabran folklor örnəkləri" (2013) və digər həcmli, monumental elmi əsərləri nümunə kimi göstərmək olar.

Bu əsərlərin bir qisminin elmi-nəzəri problematikasını xülasə şəklində nəzərdən keçirəsi olsaq, profesor Məmməd Əliyevin ədəbiyyatşünas - nəzəriyyəçi kimi ampulasının siqləti haqqında, qismən də, olsa təsəvür yaratmış olarıq. Məsələn, onun "Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi, Baki. "Elm və təhsil", 2018, 168 səh.) tədqiqatında erkən Azərbaycançılıq düşüncəsinin genezisindən, onun mif, epos yaradıcılığından qaynaqlanan ilkin dərketmə, birgəyaşayış və idarəetmə funksiyası barədə məlumat verilir. Mifdə kosmoqonik, etnoqonik baxışlar sistemi "Avesta"dan və Zərdüştilikdən irəli gələn xeyir fikir, xeyir söz, xeyir iş təliminin sonrakı dövrlərdə bədii təfəkkürdə, xüsusən epos yaradcılığında formalaşmasından geniş söhbət açılır... Müəllif Azərbaycan klassik ədəbiyyatı nümayəndələrinin bədii yaradıcılığından da, yan keçməmiş, onların əsərlərində özünü göstərən erkən Azərbaycançılıq düşüncəsinin bədii inikasından bəhs etmişdir. Və yaxud, "Ədəbiyyat nəzəriyyəsi" (Bakı, "Elm və təhsil", 2012, səh. 480.) monoqrafiyasında ədəbiyyatşünaslıq elmini əhatə edən mövzu və problemlərin, o cümlədən bədii əsərin mövzu və ideyası, süjet və kompozisiyası, şerimizin mövcud vəznləri, bənd quruluşu, ritm vasitələri kimi məsələlərin yeni müstəvidə elmi izahı öz əksini tapmışdır; "Quba-Şabran folklor örnəkləri I." (Bakı, "Elm və təhsil", 2013, 328 səh.) kitabında isə tədqiqatçı göstərir ki, qədim tarixi-mədəni mərkəzlərdən olan Dərbənd, Quba, Şabran şəhərlərinin strateji mövqeyi istər miladdan öncə, istər də sonrakı tarixi dövrlərdə hərbi-siyasi səfərlərin, burdan keçən ticarət karvanlarının meydanına çevrildiyindən bu coğrafi ərazidə söz sənətimiz və musiqimizin çox böyük örnəkləri yaranmış, inkişafına güclü təkan vermiş, xüsusən, orta əsrlərdə Səfəvilərin hərbi-tarixi səfərləri regionda maddi mədəniyyət abidələrimizin, şifahi söz sənətimizin əfsanə, rəvayət, dastan, nağıl və s. kimi janrlarının, ümumilikdə şimal-şərq regionu foklorumuzun inkişafına güclü təsir göstərmişdir ki, bunlar əsaslı şəkildə tədqiqta cəlb edilir...

"Azərbaycan şerinin vəzn və evfoniya problemləri (Bakı "Nurlan",2008, səh. 296.) ümumtürk şeiri ilə müqayisəli araşdırma əsasında ərsəyə gəlmiş bu monoqrafiyasında isə professor Məmməd Əliyev yenə də, tədqiqatdan uzaq düşmüş problemin həllinə girişir, kitabda hecə vəznli Azərbaycan şeir sənətinin aktual məsələləri təhlilə cəlb edilir, vəzn və evfoniyaa problemləri ümumtürk şeiri ilə müqayisə fonunda işıqlandırılır...